# Bulud Qaraçorlu
# SƏHƏND

## *Elimin dayağı, yurdumun fəxri*

*(Heydər Əliyevə məktub)*

*Ustadım Vurğundan söz dilənərək,
Qoy belə başlayım, şeirimi noolar,
O dahi sənətkar söylədiyitək
"Mən çocuq deyiləm, xeyli yaşım var".*

*Ömrümdə çox isti-soyuqlar görüb,
Başımda bostanlar əkərkən həyat.
Çətinliklər mənnən bacarammayıb,
Yolumu kəsəmməz qara zülumat.*

*Hər ağır dəhşətə mən dözə-dözə
Məsləkdaş, vətəndaş deyibən gəldim.
Ürək sandığını açmaqçün Sizə
Səfər yarağını geyibən gəldim.*

*Dağlar boyda ağır dərdi özümnən,
Təbrizdən Bakıya daşıdım ancaq.
Kimsəyə açmadım, ağır dözümnən
Hələlik lazımdır geri qaytarmaq.*

*Taledən gileyli olmayam gərək,
Ellərimi gördüm gözlərim aydın!
Nəsibim olmadı, ancaq nə etmək?!
İstərdim Bakıda Sən də olaydın.*

*Hamıdan dinlərkən vəsfini Sənin,
Heyif ki, görüşmək qismət olmadı.
Bisütunlar çapdım mən Fərhad təkin,
Ancaq ki, su gəlib arxa dolmadı.*

*Mən istərdim doğma bir qardaş kimi
Oturub, əyləşib danışım Sənnən.
Bir məsləkdaş kimi, bir yoldaş kimi
Söz-söhbət açaydım ana Vətəndən.*

*Sənin həvəsinlə doğma Bakıda
Dayana bilmədim, qaçdım da gəldim.
Yaman mənsiz qaldı o aziz yuva.
Qol-qanad açıban uçdum da gəldim.*

*Demişlər qara bəxt dağa çıxarsa,
Günəş də gizlənər, dağ duman olar.
Məsəlçün, çağlayan dənizə varsa,
Yay üçün isti su buzlayıb donar.*

*Qardaşım, görüşmək olmadı qismət,
Nə qədər çırpındı ürəklərimiz.
Nə bilim, nəsibim beləymiş, əlbət,
Qəribə taledə yaranmışıq biz.*

*Sənə cansağlığı arzulayaraq,
Əminəm ki, bir gün görüşəcəyik.
İnsan istədiyin tapacaq ancaq,
Ürəklər görüşsün qoyaq, hələlik.*

*Ancaq vaxtın olsa Səhəndi dinlə,
Elinin səsidir Səhəndin səsi.
Bacarsan bu solğun gülləri iylə,
Vətən nəfəsidir, Vətən nəfəsi.*

*Bu gün millətimin dayağı Sənsən,
Elimin çörəyi halalın olsun!
Dünyalar durduqca əsən dur, əsən!
Sənə göz dikmişdir bütün Vətənin!*

*28 iyul 1974*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 28 yanvar.- S. 7.